

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Mədəni Maarif

5/6*2009

Dünyanın bütün uşaqları bir-birinə bənzəyir: ərköyün və şıltaq təbiətli, məsum baxışlı, şirin gülüşlü...

2009-cu ìl Uşaq ìlìdìr

Yusìf ìbn Küseyìr məqbərəsì



Qoca Şərqin qapısı sayılan Naxçıvan şəhərində böyük Əcəmi Əbubəkr (1120-1196) oğlunun tikdirdiyi tarixi bina mərhum Yusif Küseyir oğlunun xatirəsinə inşa olunmuşdur.

Dövrünün nüfuzlu şəxsiyyətlərindən olmuş memar Yusif Küseyir oğlu haqqındakı məlumat yalnız məqbərə üzərindəki yazılı epiqrafdan öyrənilmişdir.

Məqbərənin giriş qapısında qədim kufi xətti ilə ərəbcə yazılmış sözlərin mənası belədir: "Əməli Əcəmi İbn Əbubəkr əlbənan, ən Naxçıvani." (Bu binanı naxçıvanlı memar (bənna) Əcəmi Əbubəkr oğlu tikmişdir).

Məqbərə bişmiş kərpiclə hörülərək, səkkiz üzlü və piramida şəkilli örtükdən ibarətdir. Hündürlüyü 7 metr olan binanın əsas iki, yeraltı və yerüstü hissələri vardır.

Məqbərədəki yazıdan belə məlum olur ki, miladi tarixi ilə 1162-ci ildə dünyasını dəyişmiş kübar cəmiyyətdən olmuş mərhum Yusif Küseyir oğlunun məzarüstü məqbərəsidir.

Yaxşı olardı ki, tədqiqatçılar mərhumun hansı nəsildən olmasını və şəxsiyyətini araşdırardı.

Mərhum akademik Z.Bünyadov yazmışdır ki, Əcəmi hicri tarixi ilə 557-ci ildə Şeyx Yusif İbn Qasirin (İbn Qüseyyrin)? məzarüstü məqbərəsi, Nuh yurdu Naxçıvan şəhərində tikmişlər ("Şəhriyar" qəzeti, 1997-ci il №14. səh.3).

Məqbərənin içərisində döşəmədə səkkiz guşəli dəlik qoyulmuşdur ki, hava hərəkəti olsun. Məqbərənin aşağı hissədə yerdə heç bir məzar yeri ilə yazılı kitabə yoxdur. Məhəllənin yaşlı adamları söyləyirlər ki, həmin yerdə məzarüstü böyük yazılı kitabə olmuşdur. Binanın ətrafında isə məhəllədə yaşayan bağdadı müşteyid Əbu Əsədullah Mirağa sülaləsindən olan, üzərində ərəbcə yazılı qəbrlər olmuşdur. Məqbərədəki yazılı daş əllinci illərdə götürülmüş, ətraf qəbrlərin yerində isə şəxsi evlər tikilmişdir.

Yusif Küseyir oğlunun xatirəsinə tikilmiş məqbərə son illərdə Naxçıvan MR Ali Məclisi rəhbərliyinin təşəbbüsü ilə bərpa olunmuş, ətrafı abadlaşdırılaraq xalqa çatdırılmışdır.

Məqbərə xalqımızın mənəvi tarixi ziyarətgahı olmaqla, memarlıq abidəsi kimi Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyində qeydə alınaraq qorunmaqdadır.

● **Feyruz BAĞIROV**